**AUDİT 2023, 3 (41), səh. 30-35.**
**AUDIT 2023, 3 (41), pp. 30-35.**
**АУДИТ 2023, 3 (41), стр. 30-35.**

**DOI: 10.59610/bbu3.2023.3.3**

*Əlizadə Şəmşad Nəbi oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: shamo.88@mail.ru*
*© Əlizadə Ş.N., 2023*

**UOT - 368;65**

# AZƏRBAYCANIN SIĞORTA ŞİRKƏTLƏRİNDƏ İDARƏETMƏ KEYFİYYƏTİ VƏ ONUN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin mövcud vəziyyətini təhlil etməklə onun yüksəldilməsi istiqamətlərini müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində ümumiləşdirmə, iqtisadi təhlil, məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – idarəetmə keyfiyyətinin yüksəldilməsinin əhəmiyyətini nəzərə alaraq, onun yüksəldilməsi üsullarını Azərbaycanın bütün sığorta şirkətlərində tətbiq etməkdən ibarətdir.

**Tədqiqatın nəticəsi** – sığorta fəaliyyətinin effektivliyinin təmin edilməsi məqsədilə Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi zəruridir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi üsulları müəyyən edilmiş və sistemləşdirilmişdir.

**Açar sözlər:** Azərbaycan, sığorta şirkətləri, idarəetmə keyfiyyəti, effektivlik, inkişaf.

## G İ R İ Ş

Dünya təcrübəsindən məlumdur ki, bütün müəssisələrdə idarəetmə prosesinin əsasını onun keyfiyyətli şəkildə həyata keçirilməsi təşkil edir. İdarəetmənin səmərəliliyi və effektivliyi məhz onun keyfiyyətindən asılıdır.

Müəssisədə resursların, işçi qüvvəsinin, pul vəsaitlərinin və digər varlıqların idarə edilməsində keyfiyyət başlıca amil hesab olunur. Məlum olduğu kimi, idarəetmə keyfiyyəti bir çox xüsusiyyətləri özündə birləşdirən mürəkkəb bir kateqoriyadır. Dünyada bazar iqtisadiyyatının yaranması və formalaşması digər şirkətlərlə yanaşı, sığorta şirkətlərində də idarəetmə keyfiyyətinin zəruriliyini artırır. Bu gün dünyanın ən nüfuzlu sığorta şirkətlərində idarəetmə keyfiyyəti çox yüksək bir səviyyəyə çatmışdır.

Dünya təcrübəsinə əsaslanaraq qeyd etmək olar ki, Azərbaycanın sığorta şirkətlərində resursların düzgün şəkildə idarə edilməsi, ictimaiyyətlə əlaqələrin effektivliyinin təmin olunması, inkişaf etmiş marketinq fəaliyyətinin reallaşdıırlması kimi amillər idarəetmə keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli faktorlar hesab olunur. Lakin bir məqamı da vurğulamaq lazımdır ki, Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi qısa dövrdə çox da asan məsələ deyil. Belə ki, aktual olan bu məsələnin müasir dövrdə reallaşdırılması sığorta xidmətlərinin keyfiyyətli göstərilməsindən, sığortalıların razılığının təmin

AUDİT 2023, 3 (41), səh. 30-35.
AUDIT 2023, 3 (41), pp. 30-35.
АУДИТ 2023, 3 (41), стр. 30-35.

olunmasından, əhalinin normal məlumatlandırılmasından, eləcə də dünyanın inkişaf etmiş sığorta şirkətlərinin təcrübəsinin tətbiq edilməsindən birbaşa asılıdır.

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri dünyanın inkişaf etmiş sığorta şirkətləri ilə müqayisədə geridə qalmaqdadır. Bunun əsas səbəblərindən biri isə Azərbaycanın bir çox sığorta şirkətlərində idarəetmə keyfiyyətinin nisbətən aşağı səviyyədə olmasıdır. Müasir dövrdə Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi isə ən aktual məsələlərdən biri hesab olunur.

**1. Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin iqtisadi mahiyyəti**

Dünyada bazar iqtisadiyyatının yaranması və formalaşması digər şirkətlərlə yanaşı, sığorta şirkətlərində də idarəetmə keyfiyyətinin zəruriliyini artırır. Bu baxımdan idarəetmə keyfiyyəti təkcə sənaye müəssisələrində deyil, həmçinin sığorta şirkətlərində də mühüm amil hesab olunur. Bu gün dünyanın ən nüfuzlu sığorta şirkətlərində idarəetmə keyfiyyəti çox yüksək bir səviyyəyə çatmışdır. Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın istənilən sferasında fəaliyyət göstərən şirkətlərdə idarəetmənin keyfiyyəti, ümumi idarəetmə funksiyasının keyfiyyət siyasətini müəyyən edən və tətbiq edən hissəsi hesab olunur [7]. Qeyd edək ki, dünyanın tanınmış sığorta şirkətləri kimi Azərbaycanın sığorta şirkətlərinin də uğur qazanması üçün idarəetmə keyfiyyətinin yüksək səviyyədə olması ən vacib şərtlərdən biridir. Məhz bu baxımdan idarəetmə keyfiyyəti Azərbaycanda fəaliyyət göstərən hər bir sığorta şirkəti üçün mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, sığorta şirkətləri tərəfindən sığorta xidmətləri səviyyəsinin yüksəldilməsi, təkrarsığorta əməliyyatlarının ölkənin iqtisadi maraqları çərçivəsində tənzimlənməsi, əhalinin maarifləndirilməsi məqsədilə peşəkar kadrların cəlb edilməsi və müştərilərin maraq göstərdiyi yeni sığorta məhsullarının bazara çıxarılması idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir [1].

Bundan başqa, idarəetmə keyfiyyətinin əhəmiyyətinin daha da yüksəldilməsi üçün sığorta şirkətlərində planlaşdırma, təşkiletmə və nəzarət fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi tələb olunur. Planlaşdırma dedikdə, sığorta şirkəti üçün qarşıya qoyulan hədəflərin, eləcə də həmin hədəflərə çatmaq üçün vasitələrin müəyyən edilməsi başa düşülür. Təşkiletmə fəaliyyətinə isə şirkət resurslarının düzgün şəkildə idarə edilməsi və prosedurların lazımi səviyyədə formalaşdırılması daxildir [2]. Sığorta şirkətlərində nəzarət şirkətin ümumi hədəflərinin doğru olub olmamağının yoxlanılması, lazım gəldikdə müdaxilə edilməsi proseslərini əhatə edir. Azərbaycanda bir çox sığorta şirkətlərinin rəhbərləri idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi üçün məhz planlaşdırma, təşkil etmə və nəzarət proseslərinin lazımi səviyyədə həyata keçirilməsinə xüsusi diqqət yetirməlidirlər.

**2. Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi istiqamətləri**

Müasir dövrdə bir çox ölkələrdə fəaliyyət göstərən sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi yeni üsulların araşdırılmasını, onların tətbiq edilməsini, müasir dövrdə sığorta sahəsində ortaya çıxan müəyyən problemlərin tənqidi şəkildə müzakirəsini və eləcə də aradan qaldırılmasını tələb edir [3]. Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi əsasən müştəriyönlülük, liderlik, şirkət daxilində hər kəsin iştirakı, proses yanaşması və faktlara əsaslanan qərar qəbul edilməsi kimi prinsiplərə söykənir [8].

Müasir dövrdə Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsini bir sıra yollarla reallaşdırmaq mümkündür. Bunları aşağıdakı şəkildə sıralaya bilərik:

AUDİT 2023, 3 (41), səh. 30-35.
AUDIT 2023, 3 (41), pp. 30-35.
АУДИТ 2023, 3 (41), стр. 30-35.

**Daxili nəzarət sisteminin effektiv formalaşdırılması.** İqtisadiyyatın istənilən sahəsində fəaliyyət göstərən müəssisələrdə strateji hədəflərə çatmaq üçün əsas sayılan amillərdən biri kimi daxili nəzarət sisteminin dünya standartlarına uyğun yaradılması vacibdir. Azərbaycanın sığorta bazarında mütəmadi şəkildə artan rəqabət muhiti şirkətlər tərəfindən təklif olunan sığorta məhsulları növlərinin və xidmət keyfiyyətinin yüksəldilməsi ilə bərabər, şirkətlərin daxilində güclü idarəetmə strukturunun və daxili nəzarət sisteminin formalaşmasını da tələb edir. Elə buna görə sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi daxili nəzarət sisteminin effektiv formalaşdırılmasına əsaslanır.

**İctimaiyyətlə əlaqələrin düzgün qurulması.** İctimaiyyətlə əlaqələr müəyyən bir şəxsə və ya şirkətə müəyyən lazımi bir informasiyanın verilməsinə və onunla əməkdaşlığa əsaslanan ümumi fəaliyyətdir. İctimaiyyətlə əlaqələr digər proseslərdən fərqli olaraq, şirkətin daxili və həm də xarici mühiti ilə ünsiyyət qurmasında böyük rol oynayır [4,5]. Sığorta şirkətlərində ictimaiyyətlə əlaqələrin bir çox üstünlükləri var. Belə ki, sığorta şirkətləri öz məhsullarını bazara rahat çıxara bilir, bu yolla onlar həm müştəri sayını artıra bilərlər, həm də ixtisaslı kadr cəlb edə bilərlər. Xarici şirkətlərlə eləcə də xarici dövlətlərlə əlaqələrin qurulması asanlaşır və şirkət böhran vəziyyətində olduğu halda belə, kredit təşkilatlarından maliyyə dəstəyi ala bilir [6]. Bundan əlavə, ictimaiyyətlə əlaqələr hər bir şirkətdə dəyişikliyə hazır olmağa, eləcə də risklərə əvvəlcədən reaksiya verməyə imkan verir.

**SWOT analizin düzgün aparılması.** Bazar iqtisadiyyatı şəraitində hər bir müəssisə və sahibkarlıq subyektlərinin fəaliyyətinin analiz edilməsi olduqca zəruridir. Burada rol oynayan əsas amil isə müəssisələrin SWOT analizdir. Swot analiz təkcə sənaye və istehsal müəssisələri üçün əhəmiyyətli deyildir. O, həmçinin xidmət sektorunun ayrılmaz tərkib hissəsi olan sığorta şirkətləri üçün də son dərəcə önəmlidir. Swot analizin mənası onun baş hərflərindən götürülmüşdür. Belə ki, burada S-Strength (güclü tərəflər), W-weakness (zəif tərəflər), Oopportunity (imkanlar), T-treat (təhlükələr) mənasını verir. Sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi baxımından mühüm amil sayılan SWOT analizə aid bir misal cədvəl 1-də göstərilmişdir.

*Cədvəl 1.*

**Sığorta şirkətlərində SWOT analiz**

| Güclü tərəflər | Zəif tərəflər | İmkanlar | Təhlükələr |
|---|---|---|---|
| Sığorta xidmətlərinin yüksək keyfiyyəti | Zəif idarəetmə | Potensial müştəriləri cəlb etmə imkanı | Dövlətin vergi dərəcələrini yüksəltməsi |
| Bazar araşdırmasının yüksək səviyyədə olması | Daxili nəzarətin zəif olması | İqtisadiyyatın inkişafına müsbət təsir etmə imkanı | Ölkədə baş verən mənfi iqtisadi və siyasi proseslər |
| Şirkətdə maliyyə sabitliyinin mövcud olması | İnvestisiyanın gəlirli sahələrə yönəldilə bilməməsi | Böyümə və inkişaf etmə potensialı | Ortaya çıxan risklərə qarşı tədbir görülməməsi |

AUDİT 2023, 3 (41), səh. 30-35.
AUDIT 2023, 3 (41), pp. 30-35.
АУДИТ 2023, 3 (41), стр. 30-35.

**Gəlir və xərclərin səmərəli idarə olunması.** Sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi yollarından biri gəlir və xərclərin səmərəli idarə olunması hesab olunur. Hər bir şirkətin başlıca məqsədlərindən biri xərcləri azaltmaq, gəlirləri isə yüksəltməkdən ibarətdir. Sığorta şirkətlərinin gəlirləri əsasən toplanan sığorta haqlarından, xərcləri isə sığorta hadisəsi zamanı zərər çəkmiş sığortalılara edilən sığorta ödənişlərindən ibarət olur. Sığorta şirkətləri əldə etdiyi sığorta haqlarından yüksək gəlir gətirən sahələrə investisiya yatıra bilər. Ancaq burda diqqət edilməsi mühüm olan məqamlardan biri odur ki, sığorta şirkətləri əldə etdiyi gəlirləri səmərəli idarə etməli, əvvəlcədən iqtisadiyyatın gəlir gətirən sektorlarını araşdırmalı və sonra bu addımı atmalıdır. Hər bir sığorta şirkəti baş verən sığorta hadisəsinə görə əvvəlcədən sığorta ehtiyatı yaradır. Sığorta şirkətlərinin formalaşdırdığı sığorta ehtiyatından gələcəkdə sığorta ödənişi ediləcək ki, bu da onların əsas xərcləri sayılır. Elə buna görə də sığorta ehtiyatları düzgün formalaşdırılmalı, baş verən zərər düzgün qiymətləndirilməli və xərclərin uçotu düzgün aparılmalıdır. Lüzumsuz və sığorta şirkətləri üçün mühüm əhəmiyyəti olmayan xərclərin çəkilməsi onların inkişafına mane ola bilər.

**Sığorta sahəsində yüksək peşəkar mütəxəssislərin cəlb edilməsi.** Sığorta sahəsində yüksək savada malik mütəxəssislərin mövcud olması son dərəcə önəmlidir. Çünki yüksək peşəkar savada malik olan mütəxəssislər əhalinin sığorta haqqında məlumatlandırılmasında müstəsna rol oynayırlar. Sığortanın fayda və üstünlüklərinin insanlara ətraflı qaydada izah edilməsi onların sığortaya olan marağını da yüksək həddə çatdırır. Azərbaycanın sığorta bazarında bu cür mütəxəssislərin mövcud olması, təbii ki, sığorta xidmətləri keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərəcək. Digər tərəfdən Azərbaycanda sığorta bazarının dərindən araşdırılması, müştərilərlə əlaqələrin qurulması, sığorta şirkətləri üçün faydalı olan müştərilərin seçilməsi məhz yüksək peşəkar savada malik mütəxəssis tələb edir.

**Sığorta sahəsində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi.** Məlum olduğu kimi, dünyanın inkişaf etmiş ən nüfuzlu sığorta şirkətlərində idarəetmə keyfiyyəti təkmilləşmiş bir səviyyədədir. Belə ki, müştəri ilə əlaqələrin yüksək səviyyədə qurulması, işçi heyətinin düzgün idarə edilməsi, onlara yüksək qiymət verərək motivasiya edilməsi, peşəkar sığorta mütəxəssislərinin mövcud olması, gəlir və xərclərin yüksək səviyyədə idarə edilməsi kimi faktorlar bu sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksək səviyyədə olmasını sübut edir. Digər tərəfdən dünyanın qabaqcıl sığorta şirkətlərinin hər birində yüksək idarəetmə qabiliyyətinə malik olan bir rəhbər mövcuddur. Strateji qərarların düzgün verilməsi, sığorta siyasətinin düzgün yeridilməsi və idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi sahəsində aparılan lazımi islahatlar dünyanın ən nüfuzlu sığorta şirkətlərinin uğur qazanmasında böyük rol oynamışdır. Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsində məhz dünyanın qabaqcıl ölkələrinin sığorta şirkətlərinin təcrübəsindən istifadə edilməsi çox faydalıdır.

## YEKUN

Müasir bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın istənilən sahəsində şirkətlərin uğurlu fəaliyyəti üçün idarəetmə keyfiyyətinin əhəmiyyəti mühüm amil hesab olunur. Bu səbəbdən müasir dövrdə idarəetmə keyfiyyətinin zəruriliyi sığorta şirkətlərində də ortaya çıxır. Belə ki, idarəetmə keyfiyyətinin yüksək olduğu sığorta şirkətləri durmadan inkişaf edir və böyük uğurlara

**AUDİT 2023, 3 (41), səh. 30-35.**
**AUDIT 2023, 3 (41), pp. 30-35.**
**АУДИТ 2023, 3 (41), стр. 30-35.**

imza atırlar. İdarəetmə keyfiyyətinin aşağı olması isə bir çox şirkətlərin inkişafdan qalmasına və hətta iflas olmasına səbəb olunur. Onu da qeyd edək ki, uğurlu inkişafın əsas göstəricisi kimi idarəetmə keyfiyyətinin effektivliyinin təmin edilməsi Azərbaycanın sığorta şirkətlərində də özünü göstərir. Lakin buna baxmayaraq, hal-hazırda Azərbaycanın bir çox sığorta şirkətləri idarəetmə keyfiyyətinin səviyyəsinə görə inkişaf edə bilmir.

Tədqiqat işinin əhəmiyyətli bir nəticəsi olaraq vurğulamaq olar ki, Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin aşağı olması və bundan başqa respublikamızda sığorta bazarının yüksək səviyyədə inkişaf etməməsi sığorta sahəsində hələ də hökm sürən bir sıra problemlərdən qaynaqlanır. Məsələn, bir çox sığorta şirkətlərində daxili nəzarət sistemi hələ də qənaətbəxş səviyyədə deyildir ki, rəhbər və işçi münasibətlərində bəzən subordinasiya probleminin ortaya çıxması bu məsələnin daha da böyüməsinə səbəb olur. Digər tərəfdən iş bölgüsünün düzgün olmaması və işçilərə nəzarət prosesinin qaydasında həyata keçirilməməsi də böyük problemlərin yaranmasına səbəb olur. Bundan əlavə, qeyd edə bilərik ki, sığorta agentlərinin müştərilərlə görüş zamanı xidmət keyfiyyətinin yüksəldilməsi prinsipinə əməl etməməsi böyük müştəri kütləsinin itkisi ilə nəticələnir.

Digər tərəfdən müştərilərlə görüş zamanı sığortaya aid zəruri informasiyanın təfərrüatı ilə izah edilməməsi bəzən nəticə etibarı ilə anlaşılmazlıq və mübahisələrin yaranmasına şərait yaradır. Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən hər bir sığorta şirkəti üçün idarəetmə keyfiyyətinin effektivliyinin təmin edilməsi mühüm faktordur. Son nəticə olaraq qeyd edə bilərik ki, daxili nəzarət sisteminin effektiv formalaşdırılması, ictimaiyyətlə əlaqələrin düzgün qurulması, SWOT analizin düzgün aparılması, gəlir və xərclərin səmərəli idarə olunması, sığorta sahəsində yüksək peşəkar mütəxəssislərin cəlb edilməsi və inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi yolu ilə Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin effektivliyinin təmin edilməsinə nail olmaq mümkündür.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri, Bakı, Avqust, 2013
2. Bayramov A.V. Biznes və menecmentin əsasları. Bakı, 2011, 180s.
3. Тен А.В., Румянцев Е.К., Герасимов Б.И., Сизикин А.Ю. Экономический анализ качества страхования. Тамбов, 2009, 96 с.
4. https://az.wikipedia.org/wiki/İctimaiyyətlə_əlaqələr
5. http://www.azhumanrights.az/az/analytics/442-pr-304ctimaiyy399tl399-399laq399l399r.html
6. http://old.azmarketing.az/m-m/133-pr/125-ictimaiyyətlə-əlaqələrin-üstünlükləri
7. www.aqa. az/ index.php?option=com_content&view=article&id=323
8. http://marja.az/financial/news/insurance/item/22068-sığorta-şirkətlərində-mükəmməl-korporativ-idarəetmə-sistemi-formalaşmalıdır-təhlil.html

**AUDİT 2023, 3 (41), səh. 30-35.**
**AUDIT 2023, 3 (41), pp. 30-35.**
**АУДИТ 2023, 3 (41), стр. 30-35.**

*Shamshad Nabi Alizade,*
*Ph.D. (Econ.),*
*Baku Business University,*
*E-mail: shamo.88@mail.ru*
*© Sh.N.Alizade, 2023*

## QUALITY OF MANAGEMENT IN INSURANCE COMPANIES OF AZERBAIJAN AND DIRECTIONS FOR ITS IMPROVEMENT

### A B S T R A C T

**The purpose of the research -** is to analyze the current state of management quality in insurance companies in Azerbaijan and determine areas for its improvement.

**The methodology of the research** – such methods of research as economic analysis and logical generalization were used.

**The practical importance of the research** - is to apply necessary methods of quality of management for its improvement in all insurance companies in Azerbaijan.

**The results of the research** - to ensure the efficiency of insurance activities, it is necessary to improve the quality of management in insurance companies in Azerbaijan.

**The originality and scientific novelty of the research** - methods for improving the quality of management in insurance companies in Azerbaijan have been identified and systematized.

**Keywords:** Azerbaijan, insurance companies, management quality, effectiveness, development.

*Ализаде Шамшад Наби оглы,*
*доктор философии по экономике,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: Shamo.88@mail.ru*
*© Ализаде Ш.Н., 2023*

## КАЧЕСТВО УПРАВЛЕНИЯ В СТРАХОВЫХ КОМПАНИЯХ АЗЕРБАЙДЖАНА И НАПРАВЛЕНИЯ ЕГО УЛУЧШЕНИЯ

### Р Е З Ю М Е

**Цель исследования** – проанализировать современное состояние качества управления в страховых компаниях Азербайджана и определить направления его совершенствования.

**Методология исследования** - в исследовательской работе использовались методы экономического анализа и логического обобщения.

**Практическая значимость исследования** - учитывая важность повышения качества управления, оно заключается в применении методов его улучшения во всех страховых компаниях Азербайджана.

**Результат исследования** – для обеспечения эффективности страховой деятельности необходимо повысить качество управления в страховых компаниях Азербайджана.

**Оригинальность и научная новизна исследования** - определены и систематизированы методы повышения качества управления в страховых компаниях Азербайджана.

**Ключевые слова:** Азербайджан, страховые компании, управления качество, эффективность, развитие.

*Məqalə redaksiyaya daxil olmuşdur: 05.07.2023*
*Təkrar işləməyə göndərilmişdir: 17.07.2023*
*Çapa qəbul olunmuşdur: 24.07.2023*

*The date of the admission of the article to the editorial office: 05.07.2023*
*Send for reprocessing: 17.07.2023*
*Accepted for publication: 24.07.2023*

*Дата поступления статьи в редакцию: 05.07.2023*
*Отправлено на повторную обработку: 17.07.2023*
*Принято к печати: 24.07.2023*